Torpaq sahəsinin planı və ölçüsünün təsviri

1. Bu sənəddə torpaqlara dair Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra - Komitə) tərəfindən verilən torpaq sahəsinin planı və ölçüsü (bundan sonra - plan və ölçü) təsvir edilir.

2. Nümunəsi bu sənədə əlavə edilən plan və ölçünü Komitənin strukturuna daxil olan qurum Azərbaycan Respublikasının dövlət dilində A4 formatlı xüsusi kağızda tərtib edir.

3. Plan və ölçü ciddi hesabat sənədidir, onun bir hərfdən ibarət seriyası və altı rəqəmdən ibarət nömrəsi olur.

4. Plan və ölçüdə aşağıdakılar göstərilir:

4.1. Komitənin, habelə onun strukturuna daxil olan, plan və ölçünü verən qurumun adı;

4.2. torpaq sahəsinin ünvanı, ünvan olmadıqda isə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə uyğun olaraq onun yerləşdiyi ərazi vahidi;

4.3. torpaq sahəsi üzərində hüquq sahibi haqqında məlumat:

4.3.1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı;

4.3.2. hüquqi şəxs olduqda - tam adı (o cümlədən təşkilati-hüquqi forması);

4.4. torpaq sahəsinin kateqoriyası (məqsədli təyinatı);

4.5. torpaq sahəsinin mülkiyyət növü;

4.6. torpaq sahəsi üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınan hüququn növü;

4.7. torpaq sahəsinə daşınmaz əmlak obyekti kimi verilən reyestr nömrəsi;

4.8. torpaq sahəsinin hüquqmüəyyənedici sənədlərdə əksini tapmış sahəsi (hektarla);

4.9. torpaq sahəsinin inventarlaşdırılma (çöl ölçmə) işləri nəticəsində müəyyən edilmiş faktiki sahəsi (hektarla);

4.10. torpaq sahəsində mövcud olan servitutlar barədə məlumat;

4.11. plan və ölçünün tərtib edilməsi üçün əsas olan sənədin rekvizitləri;

4.12. plan və ölçünün tərtib edilməsi tarixi;

4.13. torpaq sahəsinin kadastr göstəriciləri, o cümlədən torpaq sahəsinin qaiməsi (sertifikatı);

4.14. torpaq sahəsinin döngə nöqtələrinin koordinatları və onlar arasındakı məsafələr;

4.15. torpaq sahələri üzrə rəqəmli (elektron) kadastr xəritəsindən çıxarış;

4.16. şərti işarələr (rəqəmli (elektron) kadastr xəritəsindən çıxarışda göstərilən işarələrin təsviri);

4.17. torpaq sahəsinin qonşu sərhədləri;

4.18. torpaq sahəsinin ölçüsünə müvafiq miqyasda tərtib olunmuş torpaq sahəsinin planı;

4.19. plan və ölçünün Dövlət Torpaq Kadastrı Kitabında uçota alındığı nömrə və tarix (üzərində hüquqlar daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış torpaq sahəsinə dair tərtib edilən plan və ölçü istisna olmaqla);

4.20. Komitənin strukturuna daxil olan qurumun möhür yeri, vəzifəli şəxsinin imzası, soyadı, adı, atasının adı, plan və ölçünü tərtib etmiş icraçının imzası, soyadı, adı, atasının adı.

5. Bu sənədin 4.5-ci, 4.6-cı və 4.7-ci bəndlərində göstərilən məlumatlar torpaq sahəsi üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alındığı hallarda plan və ölçüdə əks olunur.

6. Plan və ölçü yaşayış məntəqələri hüdudlarında yerləşən torpaq sahələri üzrə tərtib edildikdə, blankın arxa tərəfinin sol hissəsindəki göstəricilər doldurulur, digər torpaq sahələri (o cümlədən, kənd təsərrüfatı təyinatlı torpaqlar) üzrə tərtib edildikdə arxa tərəfinin sağ hissəsindəki göstəricilər doldurulur.

7. Plan və ölçü itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə dublikat verilir. Bu halda plan və ölçünün yuxarı sağ tərəfində iri hərflərlə "DUBLİKAT" ştampı vurulur. Dublikat müvafiq vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq olunur.

8. Plan və ölçü itirildikdə, dublikatın alınması ilə bağlı ərizəyə plan və ölçünün itirilməsi ilə əlaqədar onun etibarsız hesab olunması barədə məlumatı əks etdirən qəzet səhifəsi, daxili işlər orqanlarının müvafiq arayışı əlavə edilməlidir.

"Torpaq sahəsinin planı və ölçüsünün təsviri"nə əlavə

Torpaq sahəsinin planı

Miqyas 1:

Dövlət Torpaq Kadastrı kitabında _____ tarixində

_____ nömrə ilə uçota alınıb.

Azərbaycan Respublikası
Əmlak Məsələləri Dövlət Komitəsi yanında

M.Y. _____

imza, soyadı, adı, atasının adı

İcraçı _____

imza, soyadı, adı, atasının adı

Azərbaycan Respublikası
Əmlak Məsələləri Dövlət Komitəsi yanında

Torpaq sahəsinin planı və ölçüsü

Torpaq sahəsinin ünvanı (yerləşdiyi ərazi) _____

Hüquq sahibi _____

Torpaq sahəsinin kateqoriyası (məqsədli təyinatı) _____

Torpaq sahəsinin mülkiyyət növü _____

Torpaq sahəsi üzərində hüququn növü _____

Reyestr nömrəsi _____

Sənəd üzrə sahəsi (hektarla) _____

Faktiki sahəsi (hektarla) _____

Torpaq sahəsində mövcud olan servitutlar _____

Plan və ölçünün tərtib edilməsinə əsas _____

Tərtibedilmə tarixi _____

A № 000000



Torpaq sahəsinin kadastr göstəriciləri

Torpaq sahəsinin qaiməsi (sertifikatı)

Sahə (ha)	Torpaq sahəsinin zonası	Torpaq sahəsinin normativ qiyməti (manatla)

Əsas döngə nöqtələrinin koordinatları

№	X	Y	Döngə nöqtələri arasındakı məsafə	
			nöqtələr	məsafə (metrlə)

Rəqəmli (elektron) kadastr xəritəsindən çıxarış

Torpaq sahəsinin qonşu sərhədləri

Şərti işarələr

Torpaq sahəsinin kadastr göstəriciləri

Torpaq sahəsinin qaiməsi (sertifikatı)

Torpaq sahəsinin qonşu sərhədləri

Əsas döngə nöqtələrinin koordinatları:

Şərti işarələr

Rəqəmli (elektron) kadastr xəritəsindən çıxarış